**Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Dövlət qulluqçularının əmək haqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 347 nömrəli Sərəncamının 4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Dövlət orqanlarında şöbə və sektorların yaradılması üçün tələb olunan ştat vahidlərinin minimum say həddi şöbə yaradılması üçün - 8 vahid (dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələrində 3 vahid) , sektor yaradılması üçün - 3 vahid müəyyən edilsin.[1]

*2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (qeydiyyatçı, nəzarətçi, təsərrüfat işçisi, xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları 2022-ci il yanvarın 1-dən aşağıdakı məbləğdə müəyyən edilsin:*[2]

| *Sıra -si* | | *Aylıq vəzifə maaşının məbləği (manatla)* |
|---|---|---|
| *1.* | *Ali kateqoriya dövlət orqanlarında* | *370* |
| *2.* | *1-ci kateqoriya dövlət orqanlarında* | *355* |
| *3.* | *2-ci və 3-cü kateqoriya dövlət orqanlarında* | *335* |
| *4.* | *4-cü və 5-ci kateqoriya dövlət orqanlarında* | *315* |

3. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilər üçün bu qərarın 2-ci bəndində nəzərdə tutulmayan vəzifələr üzrə vəzifə maaşları Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmaqla bu orqanların rəhbərləri tərəfindən müəyyən edilir.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 28 sentyabr 2004-cü il
142

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 14 dekabr 2005-ci il tarixli 224 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 12, maddə 1224**)
2. 01 fevral 2007-ci il tarixli 20 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 180**)
3. 8 fevral 2007-ci il tarixli 26 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 186**)
4. 13 fevral 2008-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 120**)
5. 25 iyul 2008-ci il tarixli 169 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 688**)
6. 13 dekabr 2013-cü il tarixli **340** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 12, maddə 1631**)
7. 9 fevral 2018-ci il tarixli **40** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 10 fevral 2018-ci il, 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 344)**
8. 15 mart 2018-ci il tarixli **99** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 22 mart 2018-ci il, 63 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 609)**
9. 28 fevral 2019-cu il tarixli **71** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 3 mart 2019-cu il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 367)**
10. 7 avqust 2019-cu il tarixli **347** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 9 avqust 2019-cu il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1454)**
11. 14 yanvar 2022-ci il tarixli **13** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 19 yanvar 2022-ci il, 12 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 65)**
12. 25 avqust 2022-ci il tarixli **331** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı 31 avqust 2022-ci il, "Xalq" qəzeti 2 sentyabr 2022-ci il, 188)**


**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 14 dekabr 2005-ci il tarixli 224 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 12, maddə 1224**) ilə 1-ci bəndində **"8 vahid"** sözlərindən sonra **"(dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələrində 3 vahid)"** sözləri əlavə edilmişdir.

[2] 25 iyul 2008-ci il tarixli 169 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 688**) ilə 2-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları 2007-ci il fevralın 1-dən aşağıdakı məbləğlərdə müəyyən edilsin:~~

| - | ~~Aylıq vəzifə maaşının məbləği (manatla)~~ |
|---|---|
| ~~1-ci kateqoriya dövlət orqanlarında~~ | ~~113~~ |
| ~~2-ci kateqoriya dövlət orqanlarında~~ | ~~88~~ |
| ~~3-cü kateqoriya dövlət orqanlarında~~ | ~~80~~ |
| ~~4-cü kateqoriya dövlət orqanlarında~~ | ~~73~~ |
| ~~5-ci kateqoriya dövlət orqanlarında~~ | ~~65~~ |
| ~~6-cı və 7-ci kateqoriya dövlət orqanlarında~~ | ~~60~~ |

13 dekabr 2013-cü il tarixli **340** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 12, maddə 1631**) ilə 2-ci hissəsindəki cədvəldə 2013-cü il sentyabrın 1-dən 2013-cü il dekabrın 1-dək "**100**" rəqəmi "**105**" rəqəmi ilə əvəz edilmişdir.

13 dekabr 2013-cü il tarixli **340** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 12, maddə 1631**) ilə 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları 2008-ci il iyulun 1-dən aşağıdakı məbləğlərdə müəyyən edilsin:~~

| - | ~~Aylıq vəzifə maaşının məbləği (manatla)~~ |
|---|---|
| ~~1-ci kateqoriya dövlət orqanlarında~~ | ~~150~~ |
| ~~2-ci kateqoriya dövlət orqanlarında~~ | ~~140~~ |
| ~~3-cü kateqoriya dövlət orqanlarında~~ | ~~130~~ |
| ~~4-cü kateqoriya dövlət orqanlarında~~ | ~~120~~ |
| ~~5-ci kateqoriya dövlət orqanlarında~~ | ~~110~~ |
| ~~6-cı və 7-ci kateqoriya dövlət orqanlarında~~ | ~~100~~ |

9 fevral 2018-ci il tarixli **40** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 10 fevral 2018-ci il, 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 344**) ilə 2-ci hissədəki cədvəldə "**125**" rəqəmi "**130**" rəqəmi ilə əvəz edilmişdir.

15 mart 2018-ci il tarixli **99** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 mart 2018-ci il, 63 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 609**) ilə qərarın 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

*~~2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (xadimə, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) vəzifə maaşları 2013-cü il dekabrın 1-dən aşağıdakı məbləğlərdə müəyyən edilsin:~~*

-

| - | ***~~Aylıq vəzifə maaşının məbləği (manatla)~~*** |
|---|---|
| *~~Ali kateqoriya dövlət orqanlarında~~* | *~~175~~* |
| *~~1-ci kateqoriya dövlət orqanlarında~~* | *~~165~~* |
| *~~2-ci və 3-cü kateqoriya dövlət orqanlarında~~* | *~~155~~* |
| *~~4-cü və 5-ci kateqoriya dövlət orqanlarında~~* | *~~130~~* |

28 fevral 2019-cu il tarixli **71** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 367**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

*~~2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları 2018-ci il martın 1-dən aşağıdakı məbləğlərdə müəyyən edilsin:~~*

-

| ***~~Sıra -si~~*** | - | ***~~Aylıq vəzifə maaşının məbləği (manatla)~~*** |
|---|---|---|
| *~~1.~~* | *~~Ali kateqoriya dövlət orqanlarında~~* | *~~195~~* |
| *~~2.~~* | *~~1-ci kateqoriya dövlət orqanlarında~~* | *~~185~~* |
| *~~3.~~* | *~~2-ci və 3-cü kateqoriya dövlət orqanlarında~~* | *~~175~~* |
| *~~4.~~* | *~~4-cü və 5-ci kateqoriya dövlət orqanlarında~~* | *~~145~~* |

7 avqust 2019-cu il tarixli **347** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 9 avqust 2019-cu il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1454**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

*~~2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları 2019-cu il martın 1-dən aşağıdakı məbləğlərdə müəyyən edilsin:~~*

| ***~~Sıra -si~~*** | - | ***~~Aylıq vəzifə maaşının məbləği (manatla)~~*** |
|---|---|---|
| *~~1.~~* | *~~Ali kateqoriya dövlət orqanlarında~~* | *~~220~~* |
| *~~2.~~* | *~~1-ci kateqoriya dövlət orqanlarında~~* | *~~210~~* |
| *~~3.~~* | *~~2-ci və 3-cü kateqoriya dövlət orqanlarında~~* | *~~200~~* |
| *~~4.~~* | *~~4-cü və 5-ci kateqoriya dövlət orqanlarında~~* | *~~180~~* |

14 yanvar 2022-ci il tarixli **1 3** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 yanvar 2022-ci il, 12 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 65**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

*~~2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən aşağıdakı məbləğlərdə müəyyən edilsin:~~*

| ***~~Sıra -si~~*** | - | ***~~Aylıq vəzifə maaşının məbləği (manatla)~~*** |
|---|---|---|
| *~~1.~~* | *~~Ali kateqoriya dövlət orqanlarında~~* | *~~310~~* |
| *~~2.~~* | *~~1-ci kateqoriya dövlət orqanlarında~~* | *~~295~~* |
| *~~3.~~* | *~~2-ci və 3-cü kateqoriya dövlət orqanlarında~~* | *~~280~~* |

| | | |
|---|---|---|
| ~~*4.*~~ | ~~*4-cü və 5-ci kateqoriya dövlət orqanlarında*~~ | ~~*260*~~ |

25 avqust 2022-ci il tarixli **331** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı 31 avqust 2022-ci il, "Xalq" qəzeti 2 sentyabr 2022-ci il, 188**) ilə 2-ci hissəsinə "**xadimə**" sözündən əvvəl "**qeydiyyatçı, nəzarətçi, təsərrüfat işçisi,**" sözləri əlavə edilmişdir.